

**Hər bir işin uğurlu yekunu neçə-neçə amillərə söykənir: maddi-texniki bazanın möhkəmləndirilməsi, yeni texnologiyaların tətbiqi, səmərəli fəaliyyət üçün əlverişli şəraitin yaradılması və s. və i.a.**

# İnkişafa istiqamətlədən təhsil

**Əlbəttə, bu sırada kadr potensialı daha böyük önəm daşıyır. Çünki maddi-texniki bazanı möhkəmləndirən də, yeni texnologiyaları istehsala tətbiq edən də, əlverişli iş şəraitindən səmərəli şəkildə yararlanan da, sonda uğurlu nəticəyə nail olan da məhz kadrlardır.**

Təsadüfi deyildir ki, son illər ölkəmizdə müxtəlif sahələr, o cümlədən turizm sektoru üzrə kadrların yetişdirilməsinə və onların müvafiq təşkilatlarda yerləşdirilməsinə xüsusi qayğı ilə yanaşılır. Azərbaycan Turizm İnstitutunda (ATİ) yeni tədris ilinin başlanması münasibətilə keçirilən "Bilik günü"ndə geniş auditoriya qarşısında çıxış edən Respublikanın Mədəniyyət və Turizm Naziri Əbülfəs Qarayev bu məsələnin nə qədər aktual olduğunu bir daha diqqətə çatdırdı...

Məlumat üçün bildirək ki, mərasim Azərbaycanın dövlət himninin səsləndirilməsi ilə başladı. ATİ-nin rektoru Cəfər Cəfərov çıxış edərək bildirdi ki, bu il instituta bakalavr pilləsi üçün 10 ixtisas üzrə 386 nəfər qəbul olunub və plan yerləri tam dolub: "Qəbul olmuş tələbələrdən 248 nəfəri dövlət sifarişi, 133 nəfəri isə ödənişli əsaslarla təhsil alacaq. Azərbaycan sektoruna 326, rus sektoruna isə 55 tələbə qəbul olunub. Tələbələrdən 28 nəfəri məcburi köçkündür. Qəbul olanların yarıdan çoxunun balı 400-dən yuxarıdır. İki tələbə 600-dən çox bal toplayıb, balı 250-dən az olan tələbələrin sayı isə cəmi 5 nəfərdir".

C.Cəfərov həmçinin 2012/2013-cü tədris ilində ATİ-də mövcud olan bütün təhsil pillələri üzrə qəbul prosesinin davam etdiyini də vurğuladı. Onun sözlərinə görə, ilkin peşə təhsili üzrə institutun nəzdində fəaliyyət göstərən Bakı Turizm Peşə Məktəbində təsdiq olunmuş plana əsasən 11 ixtisas üzrə 400 plan yerinə 448 nəfər sənəd verib: "Magistratura pilləsində 69 plan yeri üzrə qeydiyyat davam etdirilir, doktorantura üzrə qəbulun isə bu ilin sonunda keçirilməsi nəzərdə tutulur. Hazırda ATİ-nin 2 korpusunda 1500-dən çox bakalavr tələbə təhsil alır. Ümumillikdə isə burada təhsilin bütün səviyyələrində turizm sahəsi üzrə 2000-dən çox kadr hazırlanır".

■

Gəncləri tələbə adını qazanmaları münasibətilə təbrik edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bildirdi ki, ildən-ilə Azərbaycanın iqtisadiyyatı ilə bərabər, turizm sənayesi də güclü inkişaf tempi ilə diqqət çəkir. Bu inkişafda xüsusi önəm kəsb edən istiqamətlərdən biri də kadr hazırlığıdır: "Bu kadrları yüksək səviyyədə hazırlayan və turizm sektoruna təhvil verən təhsil ocağı dövlət başçımızın təşəbbüsü ilə yaradılan Azərbaycan Turizm İnstitutudur. Sevindirici haldır ki, ali məktəbin uğurları durmadan artır və bu da bizə fəxr etməyə əsas verir.

Fərəh doğuran odur ki, bu gün ATİ-nin məzunları uğrunda, sözün yaxşı mənasında, rəqabət gedir. Ölkəmizdə fəaliyyət göstərən elə bir aparıcı turizm müəssisəsi yoxdur ki, orada tələbələrimiz təcrübə keçməsin və yaxud da məzunlarımız çalışmasın. Bu faktın özü institutun yetirmələrinin yüksək hazırlıq səviyyəsindən, onların öz ixtisaslarını dərindən öyrənmələrindən xəbər verir".

Nazir daha sonra xitabən dedi: "Əziz tələbələr, mən sizi bir daha bu ali təhsil ocağına daxil olunmağınız münasibətilə təbrik edirəm. Sevindirici haldır ki, yüksək bilik səviyyəsi olan gənclər öz gələcək taleyini məhz turizm sənayesi ilə bağlamağa üstünlük verirlər. 7 il əvvəl Turizm İnstitutu təzə açılanda bir ildə Azərbaycana 1 milyondan az turist gəlmişdi. İndi bu göstərici 2 milyon yarımdan da çoxdur.

Sözsüz ki, istirahətə gələn hər bir turist ona yüksək səviyyəli xidmət göstərilməsini, üzügülər personalla qarşılanmasını arzulayır. Hesab edirəm ki, ATİ-nin daxilində gedən tədris bu gün Azərbaycanın təhsil sistemində nümunəvi bir prosesdir. Bu, Bolonya sisteminin tələblərinə tam cavab verir. İnstitutda beynəlxalq proqramlar tətbiq olunur. Fərqlənən tələbələr yalnız Azərbaycanın deyil, eyni zamanda Avstriyanın aparıcı təhsil ocağının diplomunu almaq imkanı qazanırlar. Tələbələr 10-dan artıq xarici ölkədə təcrübə keçirlər. Fərəhlidir ki, idən-ilə mübadilə proqramı çərçivəsində institutumuza üz tutan əcnəbi tələbələrin, aspirantların, doktorantların sayı da artır".

■

Nazir ATİ-nin nəzdində yaradılan Bakı Turizm Peşə Məktəbinin fəaliyyətinə də toxundu, bu tədris ocağında oxuyacaq gənclərə uğurlar arzuladı: "Düşünürəm ki, bu il fəaliyyətə başlayan məktəb turizm sənayesinin inkişafına yeni təkan verəcək. Çünki əgər siz menecment, marketinq, regionşünaslıq üzrə Azərbaycan turizminin aparıcı qüvvələri sırasına daxil olmaq niyyətindəsinizsə, sizin arxanızca gələn böyük bir peşə təhsilli qüvvə olmalıdır.

Sizi Azərbaycan turizminin inkişafı ilə bağlı böyük layihələr gözləyir. Bu ildən etibarən Şahdağda qışda və yayda fəaliyyət göstərəcək istirahət zonası açılacaq. Orada yeni turizm xidmətləri üçün öz bilik və bacarıqlarınızı göstərməlisiniz. Siz böyük bir ailəyə daxil olmaq üçün açar əldə etmisiniz. O qapını açıb daxil olmaq isə özünüzdən asılıdır. Nə qədər müəllimlərinizin biliyindən yararlansanız, müasir texnologiyaların imkanlarından istifadə edə bilsəniz, bir o qədər bu qapılar sizin üzünüzə geniş açılacaq.

Qarşınızda heç də hamar olmayan geniş bir yol var. Bu yolun öz çətinlikləri, öz problemləri olacaq. Mən arzu edirəm ki, bu gün bu ali təhsil ocağına daxil olan hər gənc düşünsün ki, o, öz üzərinə Azərbaycanın qeyri-neft sektorunun aparıcı iqtisadi sahəsinin inkişafına töhfə vermək missiyası götürür. Siz Azərbaycan xalqının rifahını uzun illər təmin edəcək bir qüvvə kimi yetişməlisiniz. Mən sizə bu yolda uğurlar diləyirəm".

■

Əbülfəs Qarayev həmçinin diqqətə çatdırdı ki, bu yaxınlarda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Bakıda daha bir dünya brendli mehmanxana - "Four Seasons Hotel Baku" istifadəyə verilib: "Hotelin xarici görünüşü və rahatlığı ilə bərabər, diqqət çəkən məqamlardan biri də burada çalışan yetirmələrimizdir.

**Çox önəmli hadisədir ki, dünyanın aparıcı şirkətləri Bakıda öz müəssisələrini açmaqda və mütəxəssislərimizlə əməkdaşlığı gücləndirməkdə maraqlıdırlar. Bizim üçün fərəh doğuran digər amil isə həm də bu gənclərin xalqımızın qədim və zəngin qonaqpərvərlik ənənələrini turistlərə lazımi səviyyədə təqdim etmələri ilə bağlıdır"...**

**Y.VƏLİYEV**

